# ABŞ-ın Vaşinqton və Annapolis şəhərlərində Azərbaycana həsr olunan tədbirlər keçirilib

ABŞ paytaxtının əsas diplomatik nəşri olan “The Washington Diplomat” qəzeti tərəfindən oktyabrın 6-da Vaşinqtonda Azərbaycana aid seminar keçirilib. Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanovla açıq müsahibə formatında keçirilən tədbirdə Vaşinqtonun siyasi, diplomatik və biznes dairələrinin çoxsaylı nümayəndələri iştirak ediblər.

“The Washington Diplomat” qəzetinin bu yeni təşəbbüsünün ilk tədbiri məhz Azərbaycana həsr olunub.

Oktyabrın 7-də isə səfir E.Süleymanov Merilend ştatının paytaxtı olan Annapolis şəhərinin Beynəlxalq Klubunun yüzdən artıq üzvü qarşısında çıxış edib.

Vaşinqtonda keçirilmiş tədbir zamanı qəzetin aparıcı jurnalisti Lari Luksnerin suallarına cavab verən səfir Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində mühüm inkişaf yolu qət etdiyini bildirib, ölkəmizin nailiyyətlərindən söz açıb. Hər iki tədbirdə diplomat Azərbaycanın təşəbbüsü ilə Bakı-Tbilisi-Ceyhan neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz xətti kimi irimiqyaslı layihələrin uğurla həyata keçirilməsinin yalnız Azərbaycanın deyil, regionun digər ölkələrinin inkişafına da töhfə verdiyini vurğulayıb. Ölkəmizin iqtisadi inkişafından bəhs edən səfir Azərbaycanın zəngin neft və təbii qaz ehtiyatlarına malik ölkə kimi tanındığını, bununla belə Prezident İlham Əliyev tərəfindən aparılan siyasət nəticəsində əsas prioritetlərdən birinin bu ehtiyatların ixracından əldə edilən gəlirlər əsasında qeyri-neft sektorunun inkişaf etdirilməsinin olduğunu bildirib və həmin siyasətin uğurla həyata keçirildiyini vurğulayıb. Azərbaycanda və ölkəmizin iştirakı ilə regionda böyük infrastruktur layihələrinin, o cümlədən Bakı-Tbilisi-Qars dəmiryolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və s. layihələrin həyata keçirildiyi tədbirlərin iştirakçılarının diqqətinə çatdırılıb.

Eyni zamanda, diplomat Azərbaycanın dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalar və mədəniyyətlərarası dialoq məkanı, zəngin multikultural ənənələrə malik ölkə kimi tanındığını, burada müsəlman, xristian və yəhudilərin əsrlərboyu tolerantlıq və dostluq şəraitində yaşadıqlarını söyləyib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən səfir Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü və onun nəticələri, o cümlədən münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası və digər beynəlxalq təşkilatların qəbul etdiyi bir sıra sənədlər barədə geniş məlumat verib. O, münaqişənin həlli barədə suallara cavab verərək bildirib ki, münaqişənin həlli formulası hamıya bəllidir və masa üzərindədir. Bu, ilk növbədə Azərbaycanın işğal olunmuş ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən boşaldılması və oradan qovulmuş bir milyon qaçqın və məcburi köçkünün öz yurdlarına qayıtmasıdır. Beləliklə, münaqişənin həlli üçün çatışmayan yeganə amil hazırda yalnız Ermənistan rəhbərliyinin, o cümlədən Ermənistan xalqının gələcəyi və ölkənin inkişafı naminə onun həll edilməsi üçün siyasi iradəsinin olmamasıdır.

E.Süleymanov noyabrın 1-də ölkəmizdə keçiriləcək parlament seçkiləri barədə danışıb. O bildirib ki, hər bir namizədin seçki kampaniyası üçün müvafiq şərait yaradılıb, o cümlədən ictimai mediada təmənnasız efir vaxtı ayrılıb, həmçinin bu seçkilərin şəffaf və demokratik şəraitdə keçirilməsinin təmin edilməsi üçün ölkəmizdə lazımi tədbirlər görülməkdədir. Regionda və dünyada baş verən hadisələr barədə suallara cavab verən diplomat qeyri-sabitlik, aqressiv separatçılıq və ekstremist hərəkatlar tərəfindən mövcud olan təhlükəni vurğulayıb. Dünyada dəyişən mühitdə ABŞ tərəfindən daha strateji və praqmatik yanaşmanın vacibliyini vurğulayan səfir Birləşmiş Ştatların tərəfdaş dövlətlər ilə, o cümlədən Azərbaycanla daha aydın, obyektiv və konstruktiv siyasət aparmasının önəmini bildirib. Bu kontekstdə o qeyd edib ki, ikili standartlar və səthi yanaşmalar regionun inkişafına mənfi təsir göstərir.

***Yusif BABANLI,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Vaşinqton*

Azərbaycan.- 2015.- 9 oktyabr.- S.8.